# Aşıq Alının aranıb-arınan şeirləri

*(əvvəli qəzetin 16 fevral tarixli sayında)*

**Məlum oldu ki, Pərinin Gədəbəy rayonunun Slavyanka kəndində məskunlaşan nəvəsi mərhum Səməd İsmayıloğlu həmin təcnisi Bərdənin Otuzikilər kəndinə, Telman Hüseynə göndərib. Təcnis aşağıdakı kimidir:**

**BİR AY ƏMƏNDƏ**

***Açanda gözümü cahani-cövrə***
***Fəhmim kara gəldi bir ay əməndə.***
***Müqəddəs sinənin mehmanı oldum,***
***Anladım anlamı bir aya mən də.***

***Rəqibdə bir məzac yaradan maram,***
***Vurram can evinə yara, danmaram,***
***Könül verdiyimi yara danmaram,***
***Bir ayə ondadır, bir ayə məndə.***

***Birdir bu aləmdə nizam, ikimi?!***
***Nizam olmaz dünya nizamı kimi.***
***Nəsimi, Füzuli, Nizami kimi***
***Alıyam, kaş yazam bir ayə mən də.***

Gümanımız gələn ayrı bir mənbə isə Mürsəl İsmayıloğlu Həkimovun toplayıb yazıya aldığı “Xalqımızın deyimləri və duyumları” kitabı oldu. Mərhum alim vaxtilə Aşıq İmran Həsənov və Aşıq Mahmud Məmmədovun repertuarında “Aşıq Alının Türkiyə səfəri” dastanını yazıya alıb. Dastanda Aşıq Alının ustadı Ağ Aşığa həsr etdiyi “Məni” rədifli bir müxəmməsi və ata-anasına xitabən yazdığı daha iki qoşması (“Atacan”, “Anacan”) diqqətimizi çəkdi, hansı ki o şeirlər də “Nə qaldı” kitabında yoxdur. Haqqında bəhs edilən müxəmməsin ilk bəndini oxucuların nəzərinə çatdırırıq:

***Mən bimaram, ustam təbib,***
***gözlər məlhəm, çara məni,***
***Onsuz firavan dolansam,***
***görsün günü qara məni,***
***Çatdırıbdı qüdrətiylə,***
***hazır bəhrə-bara məni,***



***Mehrin məndən kəssə bir an,***
***dağda-daşda ara məni,***
***Xidmətində zay olanda,***
***atın aşkar nara məni.***

Bundan sonra Aşıq Alının bir şeirindəki sözün mənasını internet üzərindən axtararkən “Şairlər yurdu – Aşıqlar diyarı” adlı bir kitabın (Bakı, Elm və təhsil, 2022) elektron versiyasıyla qarşılaşdım. Kitabda Aşıq Alının ağbulaqlı dostu Hacı Hüseynə həsr etdiyi qoşması da verilib. Şeir Hacı Hüseynin Aşıq Alıya at bağışlaması münasibətilə yazılıb:

***Bu dari-dünyada, Göyçə elində***
***Hörmətdə, izzətdə birsən, ay Hajı.***
***Sənə qismət verif xaliqi-sübhan,***
***Həqiqət yolunda şirsən, ay Hajı.***

***Başı yığıncaxlı, cövrü-cəfalı,***
***Qohuma-qonşuya, dosta vəfalı.***
***Qonaxlı-qaralı, Hatəm səxalı,***
***Süfrələr açmaxda birsən, ay Hajı...***

***Tanıyır el-ova düz insan səni,***
***Tutammaz şöhrətdə nə bəy-xan səni,***
***Azmı eyləmişəm imtahan səni?***
***Ərrər meydanında ərsən, ay Hajı.***

***Süfrəsi, dövləti, halal əməyi,***
***Yüzdüklər xərcdiyər, əsməz ürəyi.***
***Yetimlər köynəyi, yoxsul çörəyi,***
***Əvvəldən bir açıx dərsən, ay Hajı.***

***Yanında xəcalət bil Aşıx Alı,***
***Bağışda, sən allah, bu qeylü-qalı.***
***Seyiddən, molladan eylə daldalı,***
***Vallah ziyarətsən, pirsən, ay Hajı.***

“Xaqımızın deyimləri və duyumları” kitabında Mürsəl Həkimov Alının irsi haqqında yazır: “Biz əminik ki, saz-söz vurğunu, şeirlə nəfəs alan, qədirbilən oxucularımız Aşıq Alının hələ də itib-batmaq qorxusu olan gəraylı, qoşma, təcnis, divani, bayatı və müxəmməslərini sinədəftər bilənlərdən yazıya alsalar, aşıq ədəbiyyatının inkişafına xeyirxah xidmət göstərmiş olarlar”. Dəyərli oxucuların diqqətinə çatdırmaq istəyirik ki, bu günlərdə azman aşığın daha bir cinas gəraylısını əldə etmişik. Gəraylını 2013-cü ildə rəhmətlik Sərraf Şiruyə İctimai televiziyanın “Ozan” verilişində səsləndirib.

İlham Qəhrəman sonda dedi ki, beləliklə, bu gün Aşıq Alının indiyə qədər çap olunan kitablarının ən mükəmməlini çap etmək üçün onun müxtəlif mənbələrdən götürülmüş 9 şeiri, 6 qıfılbənd bayatısı və bir neçə digər nümunə artıq əlimizin altındadır. İnşallah, Haqq Aşığının yenilənmiş “Nə qaldı” kitabı tezliklə oxucuların ixtiyarına veriləcək.

Biz Aşıq Alının doğumunun 225 illik yubileyi ərəfəsində onun irsinin toplanıb günümzə daşınmasında az-çox xidmət göstərmiş Hüseyn Arifi, Hüseyn İsmayılovu, Qabil Zimistanoğlunu və Azərbaycan KP MK-nın qərarı ilə 1982-ci ildə çap olunan “Aşıq Alı” kitabını hazırlayanları minnətdarlıq hissiylə yad edirik. Ən azından, Aşıq Alının bizdən əvvəl çap edilən kitabları hansısa şeirin müqayisəli şəkildə düzgün bərpasına kömək edir.

***Əli NƏCƏFXANLI***
***XQ***

Xalq qəzeti .- 2025.- 20 fevral (№ 38).- S.10.